**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e

________ dos. Zaur Məmmədov
"___" _______ 2026-ci il

**Fənn sillabusu**

**İxtisas:** - 6004007- Menecment
**Fakultə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"
**Fənn haqqında məlumat:**
**Fənnin adı: Firmanın iqtisadiyyatı** (Kafedranın 13 fevral 2026-ci il 06 saylı protokolu ilə təsdiq edilmişdir.)
**I.Fənn haqqında məlumat:**
**Kodu** İPFS-B07
**Tədris ili:** III (2025-2026). Semestr: VI
**Tədris yükü cəmi:** 240 saat. Auditoriya yükü-75 saat:(Mühazirə 45 saat, məşğələ-30 saat).
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:**8 kredit
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmidərəcəsi:**
**1.**Şahanə *Babazadə Əlibayram qızı, baş müəllim*
**2.**Məmmədli Leyla Şahin qızı, müəllim
**Kafedranın ünvanı:**Lənkəran şəhəri, Füzuli küç., 170-a, 1 saylı korpus.
**Məsləhət saatı:**
1. Babazadə Şahanə Əlibayram qızı. I gün: saat $14^{00}$-$16^{00}$
2. İbrahimova Nəzrin Azad qızı I gün: saat $14^{00}$-$16^{00}$
3. Məmmədli Leyla Şahin qızı. III və V günlər: saat $12^{00}$-$13^{00}$

**E-mail ünvanı:**
**1.***shahanababzade@gmail.com*
*2.mammadlyleyla@gmail.com*

**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

**Əsas:**

1. prof. T.Ə.Hüseynov. "Firmanın iqtisadiyyatı". Bakı, 2009.
2. prof. T.Ə.Hüseynov. "Müəssisənin iqtisadiyyatı". Bakı, 2005.

**Əlavə:**

Экономика предприятия (фирмы). (учебник) / Под ред. проф. Волкова О.И. и доц.Девяткина О.В., М.: ИНФРА-М, 2007, 601 с.

CamScanner ilə skan edilib

3. Каптейн Ю.Н., Жиделева В.В. Экономика предприятия. (учебник) М.: ИНФРА-М, 2010, 133 с.
4. Титов В.И. Экономика предприятия. М.: Эксмо, 2008, 416 с.
5. В.Горфинкель. Экономика предприятия, (dərslik) М., 2004
6. Х.Ширинбек. Экономика предприятия, (dərslik) П., 2005

**IV. Prerekvizitlər:** Fənnin tədrisi ilə eyni vaxtda digər fənlərin tədrisinə ehtiyac yoxdur.

**V. Korerekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda digər fənlərin tədrisinə ehtiyac yoxdur.

**VI.Fənnin təsviri və məqsədi:** Bu kurs əsas fənnlər siyahısına daxildir və bütün ixtisaslar üzrə bakalavr təhsil pilləsində tələbələrə gələcək peşəkar fəaliyyət üçün firmanın iqtisadi-təsərrüfat fəaliyyətinin təşkili sahəsində zəruri olan müəyyən bilik, bacarıq və vərdişlər formalaşdırılmasını təmin edir.

Kursda firmanın bazar iqtisadi sistemində yeri və rolu izah edilir, müəssisədə istehsal proses-lərinin təşkili xüsusiyyətləri, müəssisənin iqtisadi resurslarının məhsuldar qüvvələrinin tərkibi, strukturu, bunlardan səmərəli istifadə xüsusiyyətləri, istehsalın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və hesablanması üsulları, səmərəliliyin meyar və göstəriciləri tədris olunur, müəssisənin idarə edilməsinin təşkili məsələləri, onun fəaliyyətinin planlaşdırılması xüsusiyyətləri tələbələrə izah edilir, müəssisədə investisiya və innovasiya fəaliyyətinin təşkili, müəssisənin maddi resurslarla təminatı mexanizmləri şərh edilir, müəssisənin marketinq və satış fəaliyyəti, onun xarixi iqtisadi əlaqələrinin forma və üsulları, habelə müəssisənin maliyyə fəaliyyəti tədris olunur.

Kursun tədrisində məqsəd iqtisadiyyat üzrə bakalavr pilləsində oxuyan tələbələrə bazar münasibətləri şəraitində müəssisələrin iqtisadiyyatının əsas məsələləri haqqında zəruri bilik və bacarıqları aşılamaqdır.

Kursun tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır: bazar iqtisadi sistemində firmaların yerinin və rolunun izah edilməsi; müəssisədə istehsal proseslərinin təşkili xüsusiyyətləri haqqında tələbələrə ümumi məlumatın çatdırılması; müəssisələrdə istehsal amillərindən – iş qüvvəsi və istehsal fondlarından-istifadənin xüsusiyyətlərini izah etmək, onlardan istifadənin səmərəliliyini qiymətləndirmək üsullarını izah etmək; istehsalın iqtisadi və sosial səmərəliliyinin meyar və göstəricilərini izah etmək, səmərəliliyin hesablanması sahəsində bacarıqlar aşılamaq; istehsal amillərindən istifadənin yaxşılaşdırılması yollarını və ehtiyatlarını izah etmək; müəssisənin investisiya və innovasiya fəaliyyətinin təşkili xüsusiyyətlərini göstərmək; firmanın marketinq və satış fəaliyyətinin təşkili qaydalarının və məhsulun qiymətinin formalaşması amillərinin izahı, müəssisənin maliyyə fəaliyyətinin təşkili və qiymətləndirilməsi xüsusiyyətlərini şərh etmək və bu sahədə zəruri bilikləri vermək və s.

**VII. Davamiyyətə verilən tələblər:**Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:**Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

CamScanner ilə skan edilib

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

- *10 bal- tələbə keçilmiş material dərindən başa duşur, cavabı dəqiq və hərtərəflidir.*
- *9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.*
- *8 bal-tələbə cavabında umumi xarakterli bəzi qusurlara yol verir;*
- *7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
- *6 bal- tələbənin cavabı əsasən duzgündür.*
- *5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
- *4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
- *3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
- *1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*
- *0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim planı:***Mühazirə 45 saat,Məşğələ 30 saat,* **Cəmi 75 saat**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | |
|---|---|---|---|
| | | Mühazirə | Seminar |
| 1. | **Mövzu 1: Bazar mühiti şəraitində firma**<br>***Plan:***<br>1. Firma – bazar iqtisadiyyatının əsas həlqəsi<br>2. Firmaların təsnifləşdirilməsi<br>3. Firmaların qurulması, istehsal və təşkilati strukturu<br>4. Firmanın daxili və xarici mühiti | 2 | 2 |
| 2. | **Mövzu 2: Firmanın fəaliyyətinin metodoloji və praktiki əsasları**<br>***Plan:***<br>1. Firmanın əmtəə siyasəti, əmtəənin həyat dövrü | 2 | 2 |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 2. Firmanın marketinq fəaliyyəti<br>3. Təşkilatların praktik işində lizinq əməliyyatları | | |
| 3 | **Mövzu 3: İstehsalın tipləri və istehsal prosesinin təşkili**<br>***Plan:***<br>1. İstehsal prosesinin mahiyyəti<br>2. İstehsal tsikli və onun tərkibi<br>3. Firmada istehsal prosesinin təşkili prinsipləri<br>4. Firmada istehsalın təşkili formaları<br>5. Sənaye firmalarının quruluşu və onu müəyyən edən amillər | 4 | 2 |
| 4 | **Mövzu 4: Firmanın əsas kapitalı, əsas fondları və qeyri maddi aktivləri**<br>***Plan:***<br>1. İstehsal əsas fondlarının iqtisadi mahiyyəti və təsnifatı<br>2. Əsas fondların qiymətləndirilməsi<br>3. Əsas fondların köhnəlməsi və amortizasiyası<br>4. Əsas fondlardan istifadə göstəriciləri<br>5. Firmanın istehsal gücü və onun hesablanması metodikası<br>6. İstehsal əsas fondlarından istifadənin yaxşılaşdırılması yolları | 4 | 2 |
| 5. | **Mövzu 5: Firmanın dövriyyə kapitalı**<br>***Plan:***<br>1. Dövriyyə fondlarının iqtisadi mahiyyəti və onların tərkibi<br>2. Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri<br>3. Firmada maddi resursların normalaşdırılması<br>4. İstehsal ehtiyatlarının təsnifatı və təyinatı<br>5. Firmada bitməmiş istehsalın normalaşdırılması<br>6. Firmada tədavül fondlarının idarə olunması | 4 | 2 |
| 6. | **Mövzu 6: Əmək resursları, əməyin səmərəliliyi və firmada onun ödənişi**<br>***Plan:***<br>1. Firmanın əmək resursları və onun tərkibi<br>2. Firmada kadrların idarə olunmasının xüsusiyyətləri<br>3. Əmək məhsuldarlığının mahiyyəti və onun ölçülmə metodları<br>4. Əmək məhsuldarlığının artırılması ehtiyatları və amilləri<br>5. Firmada əməyin normalaşdırılması<br>6. Əmək haqqının mahiyyəti və əhəmiyyəti<br>7. Firmadaəməyinödənilməsininformavəsistemləri | 4 | 2 |
| 7. | **Mövzu 7: İstehsal məsrəfləri və məhsulun (işin, xidmətin) maya dəyəri**<br>***Plan:***<br>1. Məhsulun maya dəyərinin anlayışı və onun əhəmiyyəti<br>2. Məhsulun istehsalına və reallaşdırılmasına xərclərin təsnifləşdirilməsi<br>3. Maya dəyərinin idarə edilməsi<br>4. Məhsulun maya dəyərinin göstəriciləri<br>5. Məhsulun maya dəyərinin aşağı salınması yolları | 4 | 2 |
| 8. | **Mövzu 8: Firmanın qiymət siyasəti**<br>***Plan:***<br>1. Məhsula (işə, xidmətə) qiymət: anlayış, funksiyaları, növləri və hesablama metodları<br>2. Təcrübədə qiymətin əmələgəlməsi metodunun seçilməsi<br>3. Firmanın qiymət siyasəti<br>4. Firmanın qiymət strategiyası | 2 | 2 |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 9. | **Mövzu 9: Firmanın fəaliyyətinin maliyyə nəticələri**<br>***Plan:***<br>1. Firmada maliyyə vəziyyətini əks etdirən göstəricilər<br>2. Firmanın maliyyəsinin mahiyyəti, maliyyə resursları və onların mənbələri<br>3. Firmanın gəlirləri, mənfəəti və onun bölüşdürülməsi<br>4. Firmada maliyyənin təşkili və planlaşdırılması<br>5. Firmanın vergi ödənişləri | 4 | 2 |
| 10. | **Mövzu 10: Firmanın innovasiya siyasəti**<br>***Plan:***<br>1. İnnovasiyanın mahiyyəti və növləri<br>2. İnnovasiyanın texnoloji və iqtisadi potensialı<br>3. Firmanın innovativ inkişafının mərhələləri<br>4. İnnovasiyanın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi | 2 | 2 |
| 11. | **Mövzu 11: Firmanın investisiya siyasəti**<br>***Plan:***<br>1.İnvestisiyanın mahiyyəti və növləri<br>2. İnvestisiyanın tərkibi və quruluşu<br>3. Firmanın investisiya fəaliyyəti və layihələrin qiymətləndirilməsi metodları<br>4. İnvestisiya səmərəliliyinin yüksəldilməsi yolları<br>5. İnvestisiya layihəsinin reallaşdırılması üçün biznes-planın tərtibi | 4 | 2 |
| 12. | **Mövzu 12: Firmanın fəaliyyətinin planlaşdırılması**<br>***Plan:***<br>1. Planlaşdırmanın mahiyyəti və əsas prinsipləri<br>2. İstehsalat proqramı firmanın inkişaf planının əsası kimi<br>3. Firmanın fəaliyyətinin biznes-planlaşdırılması<br>4. Firmada istehsal həcminin planlaşdırılması | 2 | 2 |
| 13. | **Mövzu 13: Firmanın maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi**<br>***Plan:***<br>1. Firmanın maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi mahiyyəti və istehsalın səmərəliliyinin göstəriciləri<br>2. **Firmanın maliyyə vəziyyətinin qiymətləndirilməsi**<br>**3.** Firmaların müflisləşdirilməsi və onların maliyyə sağlamlaşdırılması | 2 | 2 |
| 14. | ***Mövzu 14: Rəqabətqabiliyyətlilik və məhsulun keyfiyyətinin idarəedilməsi***<br>***Plan:***<br>*1. Rəqabətqabiliyyətlilik və məhsulun keyfiyyətinin göstəriciləri*<br>*2. Keyfiyyətin idarəedilməsi*<br>*3.Məhsulun standartlaşdırılması və sertifikasiyası* | 2 | 2 |
| 15. | **Mövzu 15: Firmanın xarici iqtisadi fəaliyyəti**<br>1. Firmanın xarici iqtisadi fəaliyyətinin mahiyyəti<br>2. Firmanın xarici iqtisadi fəaliyyətinin növləri<br>3. Firmanın idxal-ixrac əməliyyatları<br>4. Firmanın xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi vasitələri<br>5. Firmanın xarici iqtisadi fəaliyyətinin gömrük tənzimlənməsi | 3 | 2 |
| | **Cəmi** | **45 saat** | **30 saat** |

## XI. Fənn üzrə tələblər:

CamScanner ilə skan edilib

Tələbə fənnin öyrənilməsi zamanı bacarmalıdır: təsərrüfat subyektlrinin iqtisadi maraqlarına uygun qərar qəbul edilməsini, işçilərin həvəsləndirilməsinə nail olmağı.

**XII. Tədris və öyrənmə metodları:**

Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

- Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.
- Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.
- Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları və s.

**XIII. Fənn üzrə təlimin nəticələri:**

Kursun tədrisinin nəticələri gənc bakalavr iqtisadçılara gələcəkdə iqtisadiyyatın müxtəlif firmalarının, təsərrüfat subyektinin maliyyə təsərrüfat fəaliyyətini qiymətləndirməyə, istehsalın səmərəliliyinin yüksəldilməsi üzrə istifadə olunmamış ehtiyatların aşkar olunmasına və həmin imkanlardan istifadə üçün optimal idarəetmə qərarlarının hazırlanmasına imkan verəcəkdir.

Bu fənn üzrə başlıca təlim vasitələri mühazirələr, sinif müzakirələri, mütəxəssis məruzələri, komanda şəklində yerinə yetirilən layihələr, müxtəlif beynəlxalq qəzetlərdən, internet səhifələrindən götürülmüş məqalələrin təhlili və tənqididir. Hər bir dərsdən əvvəl tələbə müəyyən olunmuş mətnləri və tapşırılmış bütün digər qiraət materiallarını oxumalıdır.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV: Kollokvium sualları:**

**I Kollokvium sualları :**

1 Firma – bazar ıqtisadiyyatının əsas həlqəsi
2 Firmaların qurulması, istehsal və təşkilati strukturu
3 Firmanın əmtəə siyasəti, əmtəənin həyat dövrü
4 Firmanın marketinq fəaliyyəti
5 İstehsal prosesinin mahiyyəti
6 İstehsal tsikli və onun tərkibi
7 İstehsal əsas fondlarının iqtisadi mahiyyəti və təsnifatı
8 Firmada istehsalın təşkili formaları
9 Əsas fondların qiymətləndirilməsi
10 Əsas fondların köhnəlməsi və amortizasiyası
11 Dövriyyə fondlarının iqtisadi mahiyyəti və onların tərkibi
12 Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri
13 Firmanın əmək resursları və onun tərkibi
14 Firmada kadrların idarə olunmasının xüsusiyyətləri

CamScanner ilə skan edilib

15 Əmək haqqının mahiyyəti və əhəmiyyəti

**II Kollokvium sualları:**

1. Məhsulun maya dəyərinin anlayışı və onun əhəmiyyəti
2. Məhsulun maya dəyərinin aşağı salınması yolları
3. Məhsula (işə, xidmətə) qiymət: anlayış, funksiyaları, növləri və hesablama metodları
4. Təcrübədə qiymətin əmələgəlməsi metodunun seçilməsi
5. Firmada maliyyə vəziyyətini əks etdirən göstəricilər
6. Firmanın maliyyəsinin mahiyyəti, maliyyə resursları və onların mənbələri
7. Firmanın gəlirləri, mənfəəti və onun bölüşdürülməsi
8. İnnovasiyanın mahiyyəti və növləri
9. Firmanın innovativ inkişafının mərhələləri
10. İnvestisiyanın mahiyyəti və növləri
11. İnvestisiyanın tərkibi və quruluşu
12. Planlaşdırmanın mahiyyəti və əsas prinsipləri
13. Firmanın fəaliyyətinin biznes-planlaşdırılması
14. **Firmanın maliyyə vəziyyətinin qiymətləndirilməsi**
    Rəqabətqabiliyyətlilik və məhsulun keyfiyyətinin göstəriciləri

**XVI. İmtahan sualları:**

1 Firma – bazar iqtisadiyyatının əsas həlqəsi
2 Firmaların təsnifləşdirilməsi
3 Firmaların qurulması, istehsal və təşkilati strukturu
4 Firmanın daxili və xarici mühiti
5 Firmanın əmtəə siyasəti, əmtəənin həyat dövrü
6 Firmanın marketinq fəaliyyəti
7 İstehsal prosesinin mahiyyəti
8 İstehsal tsikli və onun tərkibi
9 Firmada istehsal prosesinin təşkili prinsipləri
10 Firmada istehsalın təşkili formaları
11 İstehsal əsas fondlarının iqtisadi mahiyyəti və təsnifatı
12 Əsas fondların qiymətləndirilməsi
13 Əsas fondların köhnəlməsi və amortizasiyası
14 Əsas fondlardan istifadə göstəriciləri
15 Firmanın istehsal gücü və onun hesablanması metodikası
16 İstehsal əsas fondlarından istifadənin yaxşılaşdırılması
17 Dövriyyə fondlarının iqtisadi mahiyyəti və onların tərkibi
18 Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri
19 İstehsal ehtiyatlarının təsnifatı və təyinatı
20 Firmanın əmək resursları və onun tərkibi
21 Firmada kadrların idarə olunmasının xüsusiyyətləri
22 Əmək məhsuldarlığının mahiyyəti və onun ölçülmə metodları
23 Əmək haqqının mahiyyəti və əhəmiyyəti
24 Firmadaəməyinödənilməsininformavəsistemləri
25 Məhsulun maya dəyərinin anlayışı və onun əhəmiyyəti
26 Məhsulun maya dəyərinin göstəriciləri
27 Məhsulun maya dəyərinin aşağı salınması yolları
28 Məhsula (işə, xidmətə) qiymət: anlayış, funksiyaları, növləri və hesablama metodları.
29 Təcrübədə qiymətin əmələgəlməsi metodunun seçilməsi
30 Firmanın qiymət siyasəti
31 Firmanın qiymət strategiyası
32 Firmada maliyyə vəziyyətini əks etdirən göstəricilər

CamScanner ilə skan edilib

33 Firmanın maliyyəsinin mahiyyəti, maliyyə resursları və onların mənbələri
34 Firmanın gəlirləri, mənfəəti və onun bölüşdürülməsi
35 Firmanın vergi ödənişləri
36 İnnovasiyanın mahiyyəti və növləri
37 İnnovasiyanın texnoloji və iqtisadi potensialı
38 Firmanın innovativ inkişafının mərhələləri
39 İnnovasiyanın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi
40 İnvestisiyanın mahiyyəti və növləri
41 İnvestisiyanın tərkibi və quruluşu
42 İnvestisiya səmərəliliyinin yüksəldilməsi yolları
43 İnvestisiya layihəsinin reallaşdırılması üçün biznes-planın tərtibi
44 Planlaşdırmanın mahiyyəti və əsas prinsipləri
45 İstehsalat proqramı firmanın inkişaf planının əsası kimi
46 Firmanın fəaliyyətinin biznes-planlaşdırılması
47 Firmada istehsal həcminin planlaşdırılması
48 **Firmanın maliyyə vəziyyətinin qiymətləndirilməsi**
49 Rəqabətqabiliyyətlilik və məhsulun keyfiyyətinin göstəriciləri
50 Keyfiyyətin idarəedilməsi
51 Məhsulun standartlaşdırılması və sertifikasiyası
52 Firmanın xarici iqtisadi fəaliyyətinin mahiyyəti
53 Firmanın xarici iqtisadi fəaliyyətinin növləri
54 Firmanın idxal-ixrac əməliyyatları
55.Firmanın xarici iqtisadi fəaliyyətinin gömrük tənzimlənməsi

"Firmanın iqtisadiyyatı" fənninin sillabusu 6004007- Menecment ixtisası üzrə təhsil proqramı tədris planı və işçi proqramı (Lənkəran Dövlət Universitetinin 16.07.2025-ci il tarixli Elmi Şuranın4/91saylı əmrinə əsasən fənn proqramı) əsasında tərtib edilmişdir. Sillabus "İqtisadiyyat və innovativ idarəetmə" kafedrasının 13 fevral 2026-ci il 06 saylı protokolu ilə təsdiq edilmişdir.

**Kafedra müdir v.i.e :** **dos.G.T.Əliyeva**

**Mühazirə müəllimi :** **b/ m. Ş.Ə.Babazadə**

**Seminar müəllimi :** **m. L.Ş.Məmmədli**

CamScanner ilə skan edilib